*Azərbaycan Ordusu, Azərbaycan əsgəri bilməlidir ki, ölkəmizin ərazi bütövlüyü nəyin bahasına olursa-olsun, bərpa edilməlidir.*

**Heydər ƏLİYEV**




# AZƏRBAYCAN ORDUSU

AZƏRBAYCAN RESPUBLİKASI MÜDAFİƏ NAZİRLİYİNİN ORQANI

Qəzet 1992-ci il fevralın 11-dən çıxır 24 iyul 2019-cu il № 57 (2374) Qiyməti 30 qəpik


# XV Avropa Gənclər Yay Olimpiya Festivalının təntənəli açılış mərasimi keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər

*Son illərdə ardıcıl bir sıra mötəbər idman yarışlarına ən yüksək səviyyədə ev sahibliyi edən Bakı iyulun 21-də yenidən Avropanın, eləcə də dünyanın diqqət mərkəzinə çevrilib. Ölkəmizin paytaxtı "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalına ev sahibliyi edir.*



AZƏRTAC xəbər verir ki, festivalın "Baku Crystal Hall"da keçirilən təntənəli açılış mərasimində Azərbaycan Respublikasının Prezidenti, Milli Olimpiya Komitəsinin rəhbəri İlham Əliyev, Azərbaycanın birinci xanımı Mehriban Əliyeva, eləcə də Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç, iştirakçı ölkələrin nümayəndə heyətlərinin rəhbərləri və digər şəxslər iştirak etdilər.

Prezident İlham Əliyev və birinci xanım Mehriban Əliyeva Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç, növbəti Avropa Gənclər Yay Olimpiya Festivalının keçiriləcəyi Slovakiyanın Baş nazirinin müavini Riçard Rasi və Avropa Olimpiya Komitələrinin rəhbərliyi ilə görüşdülər.

Avropa Gənclər Yay Olimpiya Festivalı Beynəlxalq Olimpiya Komitəsinin himayəsi altında keçirilir və 25 ildən artıq ənənəsi olan Avropa Olimpiya Komitələrinin (AOK) qurur mənbəyidir. Bu festival 14-18 yaş arası gənc idmançılar üçün ilk çoxprofilli Avropa tədbiridir. Tək illərdə, iki ildə bir dəfə keçirilən qış və yay festivalları da var.

Tədbir Olimpiya bayrağı altında keçirilir və Olimpiya ənənələri ilə zəngindir: alovlanan məşəldən başlayaraq idmançı və rəsmilərin and içməsinə qədər. Avropanın bir çox yüksələn idman ulduzları beynəlxalq arenada ilk addımlarını məhz Avropa Gənclər Yay Olimpiya Festivalı zamanı atırlar. Bütün iştirakçılar burada qazandıqları dostluq və təcrübəni özləri ilə həmişəlik evlərinə aparacaqlar, bəziləri üçün isə bu festival Olimpiya zirvəsinə bir yüksəliş olacaq. Avropa Gənclər Yay Olimpiya Festivalı Avropa gənclərini Atletlər kəndində simvolik olaraq birləşdirir. Bu festival idmançıların Olimpiya hadisələrinin ruhunu hiss etməyə və yeni qələbələrə ilhamlanmağa yol açacaq Olimpiya Oyunlarına bir qapıdır.

"Zirvələrə hazırıq" devizi altında keçirilən "Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalının talismanları Cırtdan və Bəbirdir. Paytaxt Bakının 12 idman obyektində yeddi gün davam edəcək mötəbər turnirdə 48 ölkədən 3900 atlet idmanın on növü - idman gimnastikası, atletika, basketbol, velosiped idmanı, həndbol, cüdo, üzgüçülük, tennis, voleybol və güləş yarışlarında mübarizəyə qoşulub. İştirakçıların 52 faizi oğlan, 48 faizi isə qızdır. İdmançılar 135 dəst medal uğrunda güclərini sınayırlar. Mükafatçılar üçün ümumilikdə 930 medal hazırlanıb. Medalların 300-ü qızıl, 300-ü gümüş, 330-u isə bürüncdür.

Azərbaycan festivala 122 idmançı ilə qatılıb. Heyətdə güləşçilər və yüngül atletlər sayca üstünlük təşkil edirlər. Azərbaycan bu idman növlərinin hər biri üzrə 18 nəfərlə təmsil olunur. Bundan başqa, cüdo yarışlarında 12, bədii gimnastikada 4, velosiped idmanında 6, tennisdə 4, üzgüçülük yarışlarında 6 idmançımız mübarizəyə qoşulub. Komanda idman növlərində isə voleybol və basketbol yığmalarımızın hər birinin heyətinə 12 idmançı daxil edilib. Oğlanlardan və qızlardan ibarət həndbol komandalarımızda ümumilikdə 30 oyunçu yer alıb.

Festival günlərində idman obyektlərində 3500-dən çox könüllü fəaliyyət göstərəcək.

Qeyd edək ki, Azərbaycan Avropa Gənclərinin Olimpiya festivallarında 1993-cü ildən təmsil olunmağa başlayıb. Həmin il Hollandiyanın Valkensvard şəhərindəki festivalda 43 ölkənin idmançıları mübarizə aparıblar. Festivalda Azərbaycan komandası 1 qızıl və 2 gümüş medalla ümumi hesabda 17-ci olub. 1995-ci ildə Böyük Britaniyanın Bat şəhərində keçirilmiş növbəti festivalda cəmi 1 gümüş medal qazanılıb.

1997-ci ildə İlham Əliyev Azərbaycan Milli Olimpiya Komitəsinin prezidenti seçildikdən sonra gənc idmançılarımız bu festivallarda daha böyük uğurlar qazanmağa başlayıblar. 1999-cu ildə Danimarkanın Esbyerq şəhərində keçirilmiş festivalda üç bürünc medal qazanan komandamız 2001-ci ildə İspaniyanın Mursiya şəhərində 2 gümüş və 2 bürünc, iki il sonra Parisdə 2 gümüş və 1 bürünc, 2005-ci ildə İtaliyanın Linyano şəhərində 2 qızıl və 4 bürünc medala sahib olub. Azərbaycan ən yüksək nailiyyətinə 2007-ci ildə Serbiyanın paytaxtı Belqradda təşkil olunmuş festivalda 7 qızıl medal qazanmaqla imza atıb. Həmin yarışda ölkəmiz ümumi komanda hesabında 6-cı yeri tutub.

2009-cu ildə Finlandiyanın Tampere şəhərində 3 qızıl, 1 gümüş, 1 bürünc, 2011-ci ildə Türkiyənin Trabzon şəhərində 1 qızıl, 2 gümüş, 2013-cü ildə Hollandiyanın Utrext şəhərində 2 qızıl, 1 bürünc, 2015-ci ildə Tbilisidə 2 qızıl, 1 gümüş, 2 bürünc, 2017-ci ildə Macarıstanın Györ şəhərində keçirilən festivalda isə 1 gümüş və 1 bürünc medal qazanılıb.

Nüfuzlu idman xadimləri, ekspertlər Azərbaycan paytaxtında keçirilən Avropa Gənclər Olimpiya Festivalının yüksək səviyyədə təşkil olunduğunu qeyd edirlər. Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç Bakının əvvəlki turnirlərdə olduğu kimi, bu festivala da uğurla ev sahibliyi edəcəyini vurğulayaraq deyib: "Bakı festivalın təşkilinə tam hazırdır. Şəhər yalnız irimiqyaslı tədbirlərin keçirilməsi üçün lazım olan infrastruktura malik deyil. Bakı özündə digər əsas komponentləri - yüksək təşkilatçılıq, həvəs və səmimiliyi birləşdirir. İnanıram ki, XV Avropa Gənclər Yay Olimpiya Festivalı böyük müvəffəqiyyətlə keçəcək".

"Baku Crystal Hall"a toplaşmış tamaşaçılar və yüz minlərlə televiziya izləyiciləri təntənəli açılış mərasiminin unudulmaz anlarının şahidi oldular.

Bakı vaxtı ilə saat 20:00-da XV Avropa Gənclər Yay Olimpiya Festivalının təntənəli açılış mərasimi başladı.

Əvvəlcə Azərbaycan Respublikasının Dövlət himninin sədaları altında Milli Qvardiyanın əsgərləri Dövlət bayrağını təntənəli şəkildə meydana gətirərək ucaltdılar.

Bundan sonra demək olar ki, bütün Olimpiya tədbirlərinin açılış mərasimlərinin ənənəvi hissəsi olan atletlərin paradı başladı.

İlk olaraq Olimpiya Oyunlarını dünyaya bəxş etmiş ölkənin - Yunanıstanın idmançıları səhnəyə daxil oldular. Digər ölkələrin komandaları onların arxasınca əlifba sırası ilə gəldilər.

İdmançıların keçidini ev sahibi - Azərbaycan atletləri tamamladılar. Üçrəngli bayrağımızı 15 yaşlı cüdoçu, 2018-ci ildə Yeniyetmələrin Yay Olimpiya Oyunlarının və Avropa Kubokunun qalibi Vüqar Talıbov apardı.

Azərbaycan Prezidenti İlham Əliyev, birinci xanım Mehriban Əliyeva və "Baku Crystal Hall"a toplaşmış tamaşaçılar idmançılarımızı hərarətlə salamladılar.

Atletlərin paradından sonra festivala ev sahibliyi edən Azərbaycan haqqında film nümayiş etdirildi. Filmdə ölkəmizin tarixi, mədəniyyəti, təbiəti, adət-ənənələri, eləcə də paytaxt Bakının görməli yerləri haqqında kadrlar nümayiş olundu.

Azərbaycan Respublikası Baş nazirinin birinci müavini, XV Avropa Gənclər Yay Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov və Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç səhnəyə gəldilər.

**(Ardı 2-ci səhifədə)**

AZƏRBAYCAN ORDUSU

# XV Avropa Gənclər Yay Olimpiya Festivalının təntənəli açılış mərasimi keçirilib

## Azərbaycan Prezidenti İlham Əliyev və birinci xanım Mehriban Əliyeva mərasimdə iştirak ediblər

**(Əvvəli 1-ci səhifədə)**

XV Avropa Gənclər Yay Olimpiya Festivalının Təşkilat Komitəsinin sədri Yaqub Eyyubov çıxış edərək dedi:

- Möhtərəm cənab Prezident.

Hörmətli Avropa Olimpiya Komitələrinin prezidenti cənab Yanes Kosyançiç.

Hörmətli beynəlxalq və milli federasiyaların rəsmiləri.

Əziz gənc idmançılar, xanımlar və cənablar.

XV Avropa Gənclər Olimpiya Festivalında iştirak etmək üçün Odlar yurdu Azərbaycana gəlmiş bütün dəyərli qonaqları səmimi qəlbdən salamlayır, zəngin mədəniyyətə və tarixə malik ölkəmizə "Xoş gəlmisiniz!" deyirəm.

Azərbaycan yüksək idman nailiyyətlərinə malik bir ölkədir. Bu nailiyyətlərin əsası isə Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulmuşdur. Məhz onun təşəbbüsü ilə Azərbaycan beynəlxalq Olimpiya hərəkatına qoşulmuş, ölkəmizdə Olimpiya komplekslərinin, müxtəlif idman qurğuları və mərkəzlərinin tikintisinə start verilmişdir. Azərbaycanı müasir, dünyəvi, sabit və demokratik bir ölkəyə çevirən Heydər Əliyevin uzaqgörən siyasətini hazırda Azərbaycan Respublikasının Prezidenti və Milli Olimpiya Komitəsinin rəhbəri cənab İlham Əliyev əzmlə davam etdirir. Onun idmançılara göstərdiyi xüsusi diqqət və qayğı nəticəsində əldə edilən nailiyyətlər müqayisə olunmayacaq dərəcədə artmışdır. Hazırda Bakı şəhərində və Azərbaycanın bütün regionlarında 50-yə yaxın Olimpiya İdman Kompleksi fəaliyyət göstərir ki, bu da güclü idmançılar hazırlanması ilə yanaşı, əhalinin sağlam həyat tərzi sürməsinə də hərtərəfli şərait yaradır.





Azərbaycan ən mötəbər beynəlxalq idman tədbirlərinin, idmanın müxtəlif növləri üzrə dünya və Avropa çempionatlarının, dünya kuboku və Qran-Pri yarışlarının keçirilməsində kifayət qədər böyük təcrübəyə malik bir ölkədir. Xüsusilə qeyd etmək istəyirəm ki, bu silsilədən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın sədri olduğu Təşkilat Komitəsinin rəhbərliyi ilə Bakı şəhərində keçirilmiş ilk Avropa Oyunları və IV İslam Həmrəyliyi Oyunları kimi beynəlxalq miqyaslı idman tədbirləri yüksək peşəkarlığı ilə bütün dünyada əks-sədaya səbəb olmuşdur. Biz əminik ki, bu gün açılışını etdiyimiz və Avropanın 48 ölkəsindən təqribən üç mindən çox gənc idmançının qatıldığı XV Avropa Gənclər Olimpiya Festivalı da ən yüksək səviyyədə keçirəcəyimiz növbəti idman tədbirlərindən biri olacaqdır. Yarışlar Bakıda 12 möhtəşəm idman arenasında idmanın 10 növü üzrə keçiriləcəkdir.

Əziz gənc atletlər, bizim üçün çox sevindirici haldır ki, siz ilk böyük beynəlxalq uğurunuzu məhz Azərbaycanda qazana bilərsiniz. Heç şübhəsiz deyə bilərik ki, sizlərin sırasında gələcək Olimpiya, dünya və Avropa çempionları olacaqdır. Əminik ki, siz gənclər aparacağınız idman mübarizəsi ilə yanaşı, bir-birinizlə yaxından tanış olacaq, özünüzə çoxlu dost və rəfiqə tapacaq, öz bacarıq, mədəniyyət və tarixlərinizi də paylaşacaq, o cümlədən keçmiş və müasirliyin vəhdətini təşkil edən əzəmətli Bakımızın füsunkar gözəlliyindən zövq alacaqsınız.

Ənənəvi olaraq bu festivalın işinə də könüllülər cəlb olunmuşdur. 3500 gənc könüllü festivalın təşkili və yüksək səviyyədə keçirilməsində yaxından iştirak edəcək. Biz onların hər birinə dərin təşəkkür və ehtiramımızı bildiririk.

Möhtərəm cənab Prezident, XV Avropa Gənclər Olimpiya Festivalının Təşkilat Komitəsi Avropa Olimpiya Komitələrinin qarşımıza qoyduğu bütün tələbləri yerinə yetirmişdir və Azərbaycan bu festivalın keçirilməsinə tam hazırdır.

Fürsətdən istifadə edib bu mötəbər yarışın keçirilməsində Azərbaycana etimad göstərmiş Avropa Olimpiya Komitələrinin rəhbərliyinə dərin minnətdarlığımızı bildiririk.

Bütün gəncləri, bütün idman ictimaiyyətini bu bayram münasibətilə bir daha ürəkdən təbrik edir, gənc idmançılara qələbə sevincləri və azarkeşlərin böyük marağına səbəb olacaq gərgin mübarizə nümayiş etdirməyi arzulayıram.

Əziz gənclər, qoy, bu festival sizin üçün idman, sülh və dostluq bayramı olsun.

* * *

Sonra Avropa Olimpiya Komitələrinin prezidenti Yanes Kosyançiç çıxış edərək dedi:

- Azərbaycan Respublikasının Prezidenti.

Zati-aliləri cənab İlham Əliyev.

Hörmətli rəsmilər.

Avropa Olimpiya Komitəsi İcraiyyə Komitəsinin üzvləri.

Avropa Milli Olimpiya Komitələrinin prezidentləri və katibləri.

Hörmətli idmançılar.

Əziz azərbaycanlı idmansevərlər.

Biz əllinci Avropa Olimpiya Komitəsinin nümayəndələri üçün Bakıya, Odlar yurdunun küləklər şəhərinə gəlmək, elə, öz evimizə gəlmək deməkdir. Dörd il öncə biz sizin əvəzolunmaz köməyinizlə ilk Avropa Oyunlarını təşkil etdik. Həmin Oyunlar möhtəşəm hadisə oldu və Belarusda, Minskdə ikinci Oyunlar keçirildikdən, həmçinin Polşanın Malopolska bölgəsinin Krakov şəhərində üçüncü Oyunların təşkil olunması haqqında qəbul edilmiş qərardan sonra fəxrlə deyə bilərik ki, biz birlikdə yeni ənənəni başladıq. Biz yeni Avropa Olimpiya irsinin təməlini qoyduq.

Sizin təşkilatçılıq bacarığınıza və bu sahəyə bağlılığınıza bizim heç bir şübhəmiz yoxdur. Sizin qətiyyətiniz, işinizin keyfiyyəti, könüllülərinizin mehribanlığı bizə məlumdur. Biz bilirik ki, ölkənizin ən yaxşı sərmayəsi onun gənclərinə qoyulan sərmayədir.

Hörmətli idmançılar.

Avropa Gənclər Olimpiya Festivalı gələcək çempionlar və Olimpiya medalçıları üçün əsl sınaq meydanıdır. Bu, sizin üçün çox az sayda istisnalarla çox idman növlü ilk Olimpiya təcrübəsidir. Bu, sizdə idmanın inkişafında yeni səhifənin açılması deməkdir. Burada sizin bacarığınızı nümayiş etdirmək üçün nadir şans var. Bu şans göstərir ki, siz yarışlarda qələbəyə qadirsiniz və ola bilsin ki, digər Avropa ölkələrində sizinlə həmyaşıd olan qız və oğlanlardan daha yaxşısınız. Bu, həmçinin Avropada idmançıların yeni nəslinin Olimpiya idealları, bütün xalqlar arasında sülh, dostluq və əməkdaşlıq amalları, bütövlük, inklüzivlik, həmrəylik, düzgünlük və ədalətli oyun ideyaları ilə formalaşdırılmasını sübuta yetirmək fürsətidir.

Mən, həmçinin Bakı sakinlərini və Azərbaycan xalqını səmimi qəlbdən salamlayıram. Bizi bir daha qəbul etdiyinizə görə çox sağ olun!

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev XV Avropa Gənclər Yay Olimpiya Festivalını açıq elan etdi.

* * *

Beynəlxalq Olimpiya Komitəsinin bayrağı arenaya gətirildi. Bayrağı Azərbaycanın tanınmış idmançıları, Olimpiya çempionları Elnur Məmmədli (cüdo), Zemfira Meftaxetdinova (atıcılıq), Nazim Hüseynov (cüdo), Namiq Abdullayev (güləş), Rəfiqə Şabanova (həndbol) və Lyudmila Şubina (həndbol) arenaya gətirdilər.

Beynəlxalq Olimpiya Komitəsinin bayrağı bu qurumun himninin sədaları altında Azərbaycanın bayrağı ilə yanaşı ucaldıldı.

Sonra Fəxriyə Tağızadə atletlər, Ələkbər Həsənov hakimlər və Rəşad Əbdürrəhmanov məşqçilər adından təntənəli şəkildə and içdilər. Bu andlar bütün iştirakçılara və tamaşaçılara sağlam rəqabət, ədalətli hakimlik və Olimpiya hərəkatının prinsip və ideallarına riayət edilməsinin ən yüksək prioritetə sahib olmasını xatırladır.

Daha sonra ən həyəcanlı an gəlib yetişdi və 2004-cü ildə Afina Olimpiadasının qalibi,




yunan-Roma güləşçisi Fərid Mansurov XV Avropa Gənclər Yay Olimpiya Festivalının məşəlini "Baku Crystal Hall"un məşəl kasasına gətirdi.

Sonda bütün iştirakçı ölkələrin bayraqları səhnədə dalğalandı.

"Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalının təntənəli açılış mərasimi başa çatdı.

Beləliklə, Azərbaycan orijinallığı ilə diqqəti cəlb edən, tamaşaçıları vəcdə gətirən daha bir mərasimlə festivalın tarixində mühüm yer tutacaq növbəti parlaq səhifə yazdı.

# "Ali Baş Komandanın qarşımızda qoyduğu ən əsas tapşırıq yüksək döyüş hazırlığıdır"

*Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, iyulun 20-də Mərkəzi Komanda Məntəqəsində Müdafiə naziri general-polkovnik Zakir Həsənovun rəhbərliyi altında nazir müavinləri, qoşun növləri komandanları, baş idarə, idarə və xidmət rəislərinin iştirakı, eləcə də videobağlantı vasitəsilə cəbhə bölgəsində yerləşən birlik, birləşmə komandirləri və digər məsul zabitlər də cəlb olunmaqla xidməti müşavirə keçirilib.*



Müdafiə naziri tədris ilinin sonunadək qoşun növləri, birlik, birləşmə və hərbi hissələrdə döyüş hazırlığı üzrə məşqlərin direktiv və təlimatlara uyğun daha da səmərəli təşkili, rəhbəredici sənədlərin dərindən öyrənilməsi və tətbiqi, eləcə də ordumuzda peşəkarlığın artırılmasına yönəlmiş digər tədbirlərin keçirilməsi ilə bağlı fikirlərini müşavirə iştirakçılarına çatdırıb.

Ölkə Prezidentinin tapşırığına əsasən, bu ilin sonunadək Azərbaycan Ordusunun, xüsusilə cəbhəboyu zonada yerləşən bölmələrin şəxsi heyətinin döyüş və mənəvi-psixoloji hazırlığının yüksəldilməsi və sosial-məişət şəraitinin yaxşılaşdırılması məqsədilə bir neçə hərbi obyektin istifadəyə veriləcəyini bildirən general-polkovnik Zakir Həsənov gələcəkdə də bu istiqamətdə tədbirlərin davam etdiriləcəyini qeyd edərək, görülən işlərin müasir tələblərə uyğun aparılması ilə əlaqədar vəzifəli şəxslərə müvafiq göstərişlər verib.

Qoşunların gizli və fasiləsiz idarə olmasını tələb edən Müdafiə naziri təmas xəttində əməliyyat şəraitinin ciddi nəzarətdə saxlanılması, döyüş hazırlığının daha keyfiyyətli təşkili, ideoloji işin və mənəvi-psixoloji təminatın gücləndirilməsi və digər xidməti məsələlərin həlli ilə bağlı tapşırıqlar verib.

Nazir, həmçinin hava şəraitini nəzərə alaraq şəxsi heyətin sağlamlığına diqqətin artırılması və hərbi hissələrdə yanğın təhlükəsizliyi tədbirlərinin görülməsi barədə də göstəriş verib.

Müşavirənin sonunda Müdafiə naziri sayıqlığın artırılması və təhlükəsizliyin təmin edilməsi, Ermənistan tərəfinin törədə biləcəyi hər bir təxribata hazır olmaq məqsədilə kəşfiyyat fəaliyyətinin gücləndirilməsi və düşmənə qarşı adekvat cavab tədbirlərinin görülməsi barədə əmr və tələblərini müşavirə iştirakçılarına çatdırıb.

# ABŞ-ın yeni hərbi attaşesi Azərbaycanın Müdafiə nazirinə təqdim olunub



İyulun 19-da Azərbaycan Respublikasının Müdafiə naziri general-polkovnik Zakir Həsənov Amerika Birləşmiş Ştatlarının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri Örl Litzenberqer ilə görüşüb.

Müdafiə naziri Azərbaycan ilə ABŞ arasında əlaqələrin NATO proqramları çərçivəsində və ikitərəfli əsasda qurulduğunu qeyd edərək hərbi, hərbi-texniki və hərbi təhsil sahələrində əməkdaşlığın inkişafının vacibliyini diqqətə çatdırıb.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, regiondakı hərbi-siyasi vəziyyətə toxunan nazir Ermənistanın işğalçılıq siyasətinin davam etdiyini, ATƏT-in Minsk Qrupunun həmsədrlərinin Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı səylərinə baxmayaraq sülh danışıqlarının rəsmi Yerevan tərəfindən qəsdən yubadıldığını vurğulayıb.

Ö.Litzenberqer də öz növbəsində ABŞ-ın Azərbaycanın ərazi bütövlüyünü tanıdığını və ona hörmətlə yanaşdığını qeyd edib və ölkəsinin Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinin tərəfdarı olduğunu, bunun Cənubi Qafqaz regionunun inkişafı və təhlükəsizliyinin təmin edilməsi baxımından vacibliyini bildirib.

Sonra tərəflər regional və ikitərəfli əməkdaşlıq, Xəzər dənizi və mühüm enerji infrastrukturlarının təhlükəsizliyi, kütləvi qırğın silahlarının yayılmasına qarşı mübarizə, hər iki ölkənin hərbi təhsil üzrə mütəxəssislərinin qarşılıqlı səfərləri, həmçinin maraq doğuran bir sıra digər məsələləri müzakirə ediblər.

Səfir Ö.Litzenberqer ABŞ-ın Azərbaycana yeni təyin olunan hərbi attaşesi polkovnik Terri Həmriki Müdafiə nazirinə təqdim edib.

Nazir yeni təyin olunan hərbi attaşeni Azərbaycanda fəaliyyətə başlaması münasibəti ilə təbrik edərək ölkələrimiz arasında hərbi əməkdaşlığın genişləndirilməsi sahəsində gələcək fəaliyyətində ona uğurlar arzulayıb.

# Müddətli həqiqi hərbi xidmətə çağırış davam edir

Azərbaycan Respublikası Prezidentinin müvafiq Sərəncamına uyğun olaraq iyulun 30-dək ölkə vətəndaşlarının müddətli həqiqi hərbi xidmətə çağırışı davam edir.

Müdafiə Nazirliyinin Mətbuat Xidmətindən AZƏRTAC-a bildiriblər ki, sənədə əsasən 2001-ci ildə doğulmuş və çağırış gününədək 18 yaşı tamam olmuş, habelə 1984-2000-ci illərdə doğulmuş, yaşı 35-dək olan, Azərbaycan Respublikasının Silahlı Qüvvələrində müddətli həqiqi hərbi xidmət keçməmiş, çağırışdan möhlət hüququ olmayan və ya çağırışdan azad edilməmiş Azərbaycan vətəndaşları hərbi xidmətə çağırılır.

Hazırda çağırışçıların hərbi hissələrə qəbulu prosesi davam edir.

# Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatı

## Ermənistan silahlı birləşmələri atəşkəs rejimini pozub

***23 iyul 2019-cu il.***

Ermənistan silahlı qüvvələrinin bölmələri cəbhənin müxtəlif istiqamətlərində iriçaplı pulemyotlardan və snayper tüfənglərindən də istifadə etməklə sutka ərzində atəşkəs rejimini 18 dəfə pozub.

Ermənistan Respublikası Noyemberyan rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Qazax rayonu ərazisindəki adsız yüksəkliklərdə, Krasnoselsk rayonu ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən Gədəbəy rayonunun Göyəli kəndində yerləşən mövqelərimiz atəşə tutulub.

Tərtər rayonunun işğal altında olan Göyarx, Ağdam rayonunun Cəvahirli, Xocavənd rayonunun Kuropatkino, Füzuli rayonunun Qorqan kəndləri yaxınlığında, həmçinin Goranboy, Tərtər, Ağdam və Xocavənd rayonları ərazisindəki adsız yüksəkliklərdə yerləşən mövqelərdən də ordumuzun mövqeləri atəşə tutulub.

# Azərbaycan zabiti Çin Hərbi Akademiyasını qızıl medal ilə bitirib



*Çinin Nankin şəhərində yerləşən Çin Xalq Azadlıq Ordusunun Quru Qoşunları Akademiyasının "Komanda-Qərargah Kursu"nun növbəti buraxılış mərasimi keçirilib.*

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, Azərbaycan Ordusunun zabiti mayor İftixar Cəfərov akademiyanı fərqlənmə ilə bitirərək qırmızı diplom və qızıl medal alıb. Akademiyanın Ali İmtahan Komissiyasının qərarı ilə ona "Hərb elmləri, hərbi idarəetmə ixtisası üzrə magistr" dərəcəsi verilib.

Qeyd edək ki, bu il ali hərbi təhsil müəssisəsində 67 ölkədən 165 xarici hərbi qulluqçu təhsil alıb. Akademiyanı bitirən məzunlar arasında qırmızı diplom və qızıl medal yalnız Azərbaycan Ordusunun zabiti mayor İ.Cəfərova verilib.

# Hərbçilərimizin "Beynəlxalq Ordu Oyunları-2019" yarışlarına hazırlığı davam edir

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, avqustun 3-dən 17-dək "Beynəlxalq Ordu Oyunları-2019" çərçivəsində keçiriləcək müxtəlif müsabiqələrdə iştirak edəcək Azərbaycan Ordusunun hərbi qulluqçularının hazırlığı davam edir.

"Tank biatlonu" və "Snayper həddi" müsabiqələrinə qatılan tank heyətləri və snayperlərin təlim poliqonunda hazırlıq məşqləri keçirilib.

# Sənin üçün hər birimiz Mübarizik, Ana Vətən!

*Yaddaşımdan üzülməyən xoş təəssüratlar yazın son ayında ön xətdə - səngərlərin həndəvərlərində tellənən könlümü yayın orta ayında Qarabağa aparacaq yolun başlanğıcına - "Səngərləri sərhədlərə köçürəcəyik!" deyənlərin görüşünə çəkir...*



## Ön xətdən reportaj

Gecənin qaranlığını çilikləyən dan yerindən sıyrılıb ön xəttə çatmışıq. Bayaq gözlərim könlümün cəfakeşiydi, bir azdan könlüm də, düşüncələrim də əsgərlərimizin düşüncələrinin cəfakeşi olacaq. Həmin cəfakeşliyə tələsirəm...

Səngərlərin yan-yörəsində hələ təravətini itirməyən çiçəklərə toxunmaq, ləçəklərini nəfəsimlə titrətmək istəyirəm. Bənzərsiz ətriylə könül mülkümüzün gözəllik sultanına, sultanlıq qüdrətinə dönən gözəlim çiçəklər illərdi səngərlərin həndəvərlərində mənə yaz öz yerində, yayda da təbiət, təbiətin timsalında həyat fəlsəfəsi təkrarladır: bu ətir, rayihə torpağın qüdrətidi, sərhədlərimizin o üzündə çiçəklərin ətri, rayihəsi belə olmur.

Ön xətdə, səngərlərin "on-on beş addımlığındayıq". Mənə elə gəlir ki, builki yazın da bir əli 2016-cı ilin yazının əlini sıxırmış. Görənlər bu təması ruhun qələbəsinə təbiətin ehtiramı bilib. Yaşanılmış hər ay tarixdi. Əminik ki, Azərbaycan əsgəri yaxın vaxtlarda aylardan birini tarixə görk edəcək. Aprel ovqatlıdı deyə, Lələtəpə, Bayraqtəpə soraqlıdı deyə, Azərbaycan əsgərinin döyüş əzmini, qələbə ruhunu qələbəylə tamamlayacaq deyə həmin görkə Böyük Qələbə deyəcəyik. Bu düşüncələr ruhunun sığalına dönür...

May ayında səngərlərin yan-yörəsində əsən mehin təmasından titrəşən çiçəklərin gümüldənən irili-xırdalı ləçəkləriylə Günlü yağış kəsəli göy üzünə yayılmış qövsi-qüzehin ilahi ahəngində ürkəcək narahatlığa söykəkli bir gözəlləşmə hiss etmişdik. Bu hissetməni, bu duyumu səngərdəkilərə güvəncin qüdrəti bilmişdik. İyul da bu ovqatlıdı.

Torpağın sinəsinə sığal şəkirəm. Mənə elə gəlir ki, əlim anamın saçlarında gəzişir. Bu təmas yayın istisində də təravətini itirməyən çiçəklər bitirən torpağa "Azərbaycan Ordusu"nun timsalında SÖZ ordusunun ehtiramıdı. Bu ehtiramı yaxın vaxtlarda Azərbaycan əsgərinin qələbəsi tamamlayacaq...

Ruhunun bəsirət gözləriylə ön xətdə döyüş növbətçiliyi aparanların əhatəsindən qarşı tərəfə baxanda sənə elə gəlir ki, dövlət sərhədlərimizi, sərhədlərimizdə işğaldan azad olunmuş torpaqlarımızı, o torpaqlarda əsgərlərimizi görəcəksən, bu duyuma görə əsgərlərin hər birini bağrına basmağa tələsirsən...

Salam-əleyk bitər-bitməz, alatorandan indiyəcən düşüncələrimi bürüyən fikirdən söz açıram. Əsgərlər zabitlərdən, gizirlərdən əvvəl fikir demir; bu məqamın mahiyyətinə - azərbaycançılığa söykənən hərbi xidmətə, hərbi xidmətə söykənən azərbaycançılığa dünyanın ən güclü ordularının da şəxsi heyəti həsəd apara bilər. Tarixi Dədə Qorqud əyyamıyla səsləşən bir deyimi xatırlayıram: "Böyük duran yerdə kiçik danışmaz". Zabit İsaq Orucovun bu əsgərlərdən üzülən baxışlarını döyüş növbətçiliyinə gedən əsgərlərin arxasınca "aydınlıq suyu"na dönən rəmz bilirəm. Bu baxışlarda inam var, etibar, etimad, güvənc var. Bu baxışların eynini 1992-ci ilin payızında Ağdərədə, 1993-cü ilin axırlarında Murovdağda, 1994-cü ilin əvvəllərində Horadizdə, 2016-cı ilin yazında Cocuq Mərcanlıda görmüşdüm,. O vaxtlar zabitlərdən eşitdiklərimin mahiyyətinin dönməzliyi, dönməzliyin qətiyyəti ürəyimi dağa döndərmişdi. Aradan illər keçəndən sonra eyni duyğular yaşayıram. Bu qətiyyətli bənzərsiz rəmzi Vətən sevgisinə, Vətənə sevgiyə, döyüş əzminə, qələbə ruhuna tən bilirəm. Düşüncələrimi sözə çevirməyə tələsmirəm. Baxışları hərdən sükutun - səssizliyin əhatələdiyi əsgərlərə, hərdən qarşı tərəfə - səngərlərin o üzünə sərilən zabit İsaq Orucov deyir:

- 2016-cı ilin aprelinin ilk günlərində yaşanılan böyük mənəvi coşqu hər bir azərbaycanlının ruhunda yaşamaqdadı. Səngərlərə çata-çatda 2016-cı ilin yazını ruhumuzun fəsili adlandırdınız. Əlbəttə ki, xalqa o dəyərdə sevinc, o dəyərdə qürur yaşadan fəsili belə adlandırmağa haqqımız var. Azərbaycan Ordusunun yaranmasının 101-ci ildönümü ərəfəsində bu söhbətləşməni də ictimaiyyətin istəyinin tərkib hissəsi bilirik.

- Bu istək azərbaycançılıqdı, Vətənə sevgidi, orduya inamdı, - deyirəm. Zabit hövsələsizliyimi üzə vurmadan sözünə davam edir:

- Bizə belə bir istək yaşadan qürur, tarix yazan qürur tarixdə qalacaq. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin dediyi kimi, bu döyüşlər dərsliklərə salınacaq.

Əsgər Bəhlul Hüseynov Samid İmanovun, əsgər Səbuhi Bayramov Raquf Orucovun qəhrəmanlığını, əsgər Sarvan və Namiq Məmmədov qardaşlarını - son nəfəsini qardaşının qolları üstə çəkən Sarvanı xatırlayır...

Azərbaycan Ordusunun ən müasir döyüş texnikalarla, qurğular, təyyarə və helikopterlərlə təchiz olunmasından, döyüş qabiliyyətinin artmasından, 2018-ci ildə Azərbaycan Ordusunun 100 illiyinə həsr olunan paradların möhtəşəmliyindən danışırıq. Bu, qürurdu, qürura söykənən inamdı, başlanğıcı bu inam olan Qələbə işığıdı...

- Ali Baş Komandan döyüş əmri verəndə siz bu qəhrəmanların, onların döyüş yoldaşlarının davamçıları olacaqsınız, - zabitin əsgərlərə ünvanladığı bu gözəl inamı eşitmək gözəl könül xoşluğudu. Onun səsində ürkəcək bir təəssüf çaları da hiss olunur:

- 2016-cı ilin aprelində bizim hərbi hissə əks-hücum əməliyyatına cəlb olunmadı, biz döyüşlərdə iştirak etməsək də, ruhən döyüşənlərin sırasındaydıq. Sülh danışıqları baş tutmasa, Ali Baş Komandanın əmriylə tam qələbə üçün döyüşənlərin sırasında biz də olmaq istəyirik. Səmimiliyimə inanın, hər birimiz həmin günün intizarındayıq, Böyük Qələbənin əsgəri olmaq niyyətindəyik.

Həmsöhbətimi təkcə bu hərbi hissənin deyil, ümumən Azərbaycan Ordusunun zabiti kimi dinləyirəm. Zabitin əsgərlərə güvəncini dövlətin orduya güvənci bilib dinləyirəm. Səngərlərdə eşitdiklərim həmişə düşüncələrimin can ortağı olub - eşitdiklərimi düşüncələrimə can ortağı bilib dinləyirəm...

Söz sözü çəkir.

Zabit İsaq Orucov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin Aprel döyüşləri haqqında dediyi başqa kəlamları da xatırladır. Həm o döyüşlərdə qazanılan qələbəyə görə, həm də ölkə başçısının bu qələbəyə verdiyi dəyərə görə qürurlanan əsgərlərlə qürurlanırıq.

Zabit əsgərlərə xitabən deyir ki, siz  Vətən sevgisiylə, döyüş hazırlığıyla həmin möhtəşəm tarixi yazanların davamçıları olacaqsınız. Hiss olunur ki, əsgərlər bu kəlmələri həm inam, həm də güvənc bilir. İnam 2016-cı ilin aprelində dönməzləşən inamdı, güvənc torpaqlarımızı işğaldan azad edəcək əsgərlərə, orduya güvəncdi. Bu məqam əsgərlərin düşüncələrində qələbə ovqatı yaradır.



- Aprel döyüşlərində orta məktəbdə oxuyurduq, böyüklər demişkən, uşaqlıqdan təzəcə ayrılmış yeniyetmələriydik. İndi əsgərik. Hərbi anda şədaqətlə xidmət edirik. Özündən razılıq olmasın, komandirlərimiz xidmətimizdən narazı deyillər. Ali Baş Komandanın döyüş əmriylə döyüşməyə biz də hazırıq. Torpaqlarımızı işğaldan azad etməyə borcluyuq. Bu borc Vətənə borcdu, - əsgər Səbuhi Bayramovun səmimiyyətlə dediklərini əsgər Ümid Hüseynov səmimiyyətlə tamamlayır:

- Vətən müqəddəsdi, deməli, ona ödənilməli borc da müqəddəsdi. O borcu yerinə yetirməyincə rahatlığını itirməyibsənsə, yaxşı vətəndaş deyilsən.

Hər iki əsgərin dediklərini əsgərlərin hamısının deyəcəyinə zərrəcə şübhəm yoxdu. Bir az əvvəl qəhrəmanlıqlardan, qəhrəmanlardan, şəhidlərdən, şəhidlikdən danışmışdıq. Eşitdiklərimiz ürəyimizi dağa döndərmişdi. Azərbaycan əsgəri tariximizi bilir, bu tarixi yaradanları, yaşadanları tanıyır, sevir. Əminik ki, hamısı Ümid kimi düşünür. Bu əminliyi əsgərlərə əminliklə deyirəm.

Zabit deyir ki, hərbi xidmət dövründə aparılan söhbətlər əsgərlərin dünyagörüşünün genişləndirilməsində əhəmiyyətlidir. Çağırışçı əsgər olur, xidmət edir, əsgərləşir. Çağırışçının əsgərləşməsi prosesinin iştirakçısı olmaq hərbi borcunu yerinə yetirən hərbi qulluqçuya, əsasən də zabitə kifayət qədər böyük mənəvi zövq verir. Mən hərbçi taleyimdən razıyam ki, belə mənəvi zövqdən məhrum olmamışam.

- Gənc əsgərlərin hazırlığı Hərbi and içməklə, Vətənə sədaqət andıyla davam edir. Əsgər hərbi xidmət dövründə hərtərəfli püxtələşir, Nəsimi demişkən, kamil insan olur, - hərbi hissədə zabit Rüstəm Məmmədov belə demişdi. O kəlmələri xatırladıram.

- Biz də digərləri kimi xidmət edə-edə komandirimizin dediyi səviyyədə əsgərləşirik. Günün nizam qaydalarını, komandirlərin, zabitlərin əmr və göstərişlərini məsuliyyətlə yerinə yetiririk, - əsgər İmamverdi Babayev əsgər yoldaşları adından belə deyir.

Zabitin saygılı baxışları əsgərə dikilir:

- Ona görə də dövlətə, dövlətçiliyə sədaqət hər birimizin hərbi xidmət amalımızdır. Bayaq Aprel döyüşlərinin şəhidlərini xatırladınız. Onlara yüzlərlə şəhid qəhrəmanlarımızın varisləri deməliyik.

Çavuş Yusif Nağıyev Azərbaycanın Milli Qəhrəmanı Mübariz İbrahimovu xatırladır:

- Mübariz İbrahimovun döyüşdən əvvəl yazdığı məktubu zamanında hamımız oxumuşuq. Biz də hərbi xidmətə Mübariz İbrahimovun amalına oxşar amalla gəlmişik. O məktub əli silah tutanların hamısı üçün Vətən sevgisi haqqında ən dinlənilməli monoloqdur. Mənə elə gəlir ki, əsgərlər qürurla "Sənin üçün hər birimiz Mübarizik, Ana Vətən!", - deyirlər...



**(Ardı 5-ci səhifədə)**

# Sənin üçün hər birimiz Mübarizik, Ana Vətən!

(Əvvəli 4-cü səhifədə)

- Çavuşun dediklərini Mübariz İbrahimovun məqsədini başa çatdırmaq istəyənlərin - Mübarizləşənlərin hamısının məqsədi bilirəm, - zabit belə deyir. Qəhrəmanlarımızı həmişə xatırlayırıq. Əsgərlər qəhrəmanlar haqqında söhbətləri həmişə böyük maraqla dinləyirlər. Mübariz İbrahimovun qəhrəmanlığının mahiyyəti qürur kimi əsgərlərimizin, vahimə kimi düşmənlərin yadından heç zaman çıxmayacaq.

Əsgərlərin bizə də doğma baxışlarından aydınlığıyla cəmiyyətimizə çox gərəkli bir mətləb oxunur. "Sənin üçün hər birimiz Mübarizik, Ana Vətən!".



Ruhum heç vaxt ön xətdən iraq düşməyib.

Düşüncələrimi həmişə könül mülkümün də, mənəvi dünyamın da şəriksiz səyyarəsi, düşüncələrimin davamının göy qurşağı bilmişəm.

Həmişə ön xəttə çata-çatda mənə elə gəlir ki, bir az nəfəs dərib uğurumun son dayanacağına - Böyük Qələbənin şükranlığına tələsəcəm. Şükranlıq məqamında əlim qalib əsgərlərin əlində dincələcək, məmləkətimizə belə könül xoşluğu yaşadanları - "Böyük Qələbənin əsgəriyik biz" - deyənləri bağrıma basıb gömgöy göy üzünə baxacam...

Ön xətdə - səngərlərin həndəvərlərində uşaqlıq illərini, uşaqlığın bəyaz dünyasını xatırlamaq təzad deyilmi? Xatırlamada milli-xəlqi ruh varsa, milli-xəlqi ruha söykənən tarix, dövləti, dövlətçiliyi döyüş-döyüş qoruyanlar, qələbə-qələbə tarix yaradanlar, igidlik, igidlər,... varsa, təzad deyil. Uşaqlığında dava-dava oyunlarının əsgəri olanlar hərbi xidmətdə o illəri bir qədər kövrəkliklə xatırlayırlar. Həmin xatırlamalarla səngərlərin həndəvərlərində bizim xatırlamalarımız arasında etiraf edilməli bir bağlılıq var. Bayaqdan bəri həmin bağlılıq haqqında düşünürəm.

Uşaqlığımızda nağılları çox sevmişik, Məlikməmmədin igidliyinə, dərzi şagirdi Əhmədin ağlına, zəkasına vurulub nağıl-nağıl böyümüşük, nağıl-nağıl durulmuşuq. Məlikməmmədlər hər birimizin şəriksiz qəhrəmanı olub. Uşaqlar yeniyetmələşib, yeniyetmələr cavanlaşıb, cavanlar yaşa dolub - yaşlaşıb, Məlikməmmədlər həmişə eyni yaşda - igidlik yaşında qalıb.

Müharibə illərinin uşaqları nağıl qəhrəmanlarını tamamkamal tanımağa macal tapmadılar, müharibənin qəhrəmanlarını tanıdılar. 1990-cı ilin 19 yanvar gecəsi imperiyanın tanklarının qarşısını kəsənləri tanıdılar, Şuşanı, Laçını, Kəlbəcəri, Ağdamı, Füzulini, Cəbrayılı, Qubadlını, Zəngilanı qoruyanları tanıdılar. Meşəli, Bağanıs-Ayrım, Ağdaban, Xocalı faciələrindən onların da ürəyi burxuldu...

Bir az əvvəl əsgərlərlə səmimi söhbətimiz olmuşdu. Nağıl qəhrəmanlarıyla başlayan söhbətimiz qəhrəmanlarımızla tamamlanmışdı. Çavuş Yusif Nağıyev demişdi:

- Zamanında nağılları, nağıl qəhrəmanlarını biz də sevmişik. Elə həmin vaxtlarda müharibənin nə olduğunu ata söhbətlərindən, oxuduqlarımızdan, televiziyada gördüklərimizdən bilmişik. Elə o yaşlarımızda da dərk etmişik ki, müharibə döyüş, qəhrəmanlıq deməkdir. Qəhrəmanlarımızı tanıdıq və aydınlığıyla dərk etdik ki, nağıllar bizi bu qəhrəmanların qəhrəmanlığının mahiyyətini öyrənməyə, məqamında təkrarlamağa hazırlayırmış.

Nağılların bəm-bəyaz dünyasında yeniyetmələşənlər, gəncləşənlər gördülər ki, uşaqlıq illərində nağılçılardan eşitdikləri, oxuyub tanıdıqları qəhrəmanların ayrı adla, ayrı biçim qəhrəmanlıqlarla onlarla çiyin-çiyinə, nəfəs-nəfəsə yaşayırmış. Gördülər də, tanıdılar da, sevdilər də. Hər biri torpaqlarımıza tamah salanlara qarşı döyüşlərdə Azərbaycan əsgərinin, zabitinin qəhrəmanlığının məzmununu, necəliyini düşüncələrinə köçürə-köçürə hərbi xidmətə başlayıb, əsgərləşib. Müharibə illərinin uşaqları belə böyüyüb.

Bir az əvvəl əsgər Bəhlul Hüseynov demişdi:

- Uşaqlıqda hamımız Məlikməmməd olmaq, düşmənin kökünü kəsmək istəmişik. Az sonra Qarabağda gedən döyüşlərin qəhrəmanlarını tanımışıq. İctimaiyyətin onlara sevgisini görmüşük. Böyüyəndə onların davamçısı olmağı qərara almışıq. Yəni biz nağıl qəhrəmanlarının deyil, real qəhrəmanların qəhrəmanlığını yaşada-yaşada, o qəhrəmanlıqlarla yaşaya-yaşaya böyümüşük.

Nə gözəl düşünürsən, Azərbaycan əsgəri! Bir daha, həm də dönməzliklə əmin oluram ki, sənin mənəvi-psixoloji hazırlığın belə düşüncələr əsasında formalaşdığı üçün bu səviyyədə yüksəkdir. Sən sevdiyin, qəhrəmanlıqlarını ömrünə yazdığın qəhrəmanların mənəvi varisisən, onların istəyini sən başa çatdıracaqsan!..

Nağılların fəlsəfəsi qəhrəmanlıqdı, qəhrəmanlığa aludəliyin, meylin, təşnəliyin təbliğidi, mahiyyəti etibarilə şər qüvvələrə qarşı mübarizədi. Azərbaycan əsgərinin düşüncələri uşaqlığından nağıllarımızın fəlsəfəsi əsasında mübarizəyə yönəldilib. Müharibə onları yaşından tez böyüdüb. Müharibə onların mübarizliyini döyüş əzmi səviyyəsinə, döyüş əzmini qələbə ruhu həddinə çatdırıb. Azərbaycan əsgəri ona görə güclüdü. Azərbaycan Ordusu belə əsgərlərin ordusudu.

Dünyada ikinci ən qədim insan məskəni Füzuli rayonu ərazisindəki Azıx mağarası olub. Yəni bəşərə bəşərilik, dünyəvilik işığı Azıx mağarasından düşüb. Azərbaycan əsgəri Ali Baş Komandanın döyüş əmriylə döyüşəcək, torpaqlarımızı işğaldan azad edəcək, qələbə qazanacaq, nağıl təfəkkürünün başlanğıcı olan bu mağaranı da azadlığa çıxardacaq...

Səngərdə əsgərlərə demişdim ki, mübarizlik xalqımızın yaşıdıdı. Kaş o fikrin davamı kimi Mübarizliyi təkcə nağıllarla, nağılların fəlsəfəsiylə məhdudlaşdırmaq düzgün deyil. Mübarizlik milli-xəlqi ruhdan, milli mentalitetdən gəlir. Min illər əvvəl bu ruhu Cavanşirlər yaşadıb, sonralar Basatlar, Beyrəklər, Qaraca Çobanlar, Uzun Həsənlər, Xətailər, Cavad xanlar,... Bu ruh yaşarı ruhdu, yaşanıla-yaşanıla yaşadılan ruhdu. Azərbaycan Demokratik Xalq Cümhuriyyəti yarandı, bu ruh yaşadıldı, Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı qəbul edildi, bu ruhu Azərbaycan zabiti, Azərbaycan əsgəri



böyük sədaqətlə yaşadır", - deyəydim. Onu da deyəydim ki, on illəri müharibəyə görə, müharibənin gerçəkliklərinə görə Azərbaycanımızda nağıl



dünyası uşaqları cazibəsində saxlaya bilmir, nağıllar həmin nağıllardı, qəhrəmanlar həmin qəhrəmanlardı, zaman o zaman deyil - dünyanın arşını əyilib. Dünyanın əyilmiş arşınını Azərbaycan əsgərinin Böyük Qələbəsi düzəldəcək...

"Ağ atlı oğlan" filmi müharibənin fəlsəfəsini də açır, gerçəkliklərini də göstərir. Filmdə Murad aydın düşüncəsiylə, müharibəyə, müharibə aparanlara, Vətənə fərdi münasibətiylə həm müharibə illərinin uşaqlarını, həm də rəmz formatında xalqı təmsil edir. Murad nağıllara meyilli yaşda olsa da, döyüşlərdədi - döyüşür, harada olduğunu ailəsi də bilmir. Döyüşür - inanır, inanır - döyüşür. Ağ atlı oğlanların gələcəyinə, Ali Baş Komandanın əmriylə döyüşəcəyinə, müharibənin qurtaracağına inanır, torpaqlarımızın işğaldan azad ediləcəyinə inanır. Ona da inanır ki, Ağ atlı oğlanlar nağıl qəhrəmanları yox, qətiyyətiylə, döyüş əzmiylə, qələbə ruhuyla, Vətənə, dövlətə, dövlətçiliyə məhəbbətiylə tarixlər yazmağa qadir azərbaycanlı qəhrəmanlar olacaq.

Muradlar - müharibə illərinin uşaqları 2016-cı ilin Aprel döyüşlərini xatırlayır, əsgərlərin döyüş əzmini, qələbə ruhunu, Lələtəpədə, Bayraqtəpədə, Günnütdə əzəmətlə dalğalanan bayraqlarımızı xatırlayır. Bu xatırlamaların hər biri nağıllardan gerçəkliyə düşən işıqdı. Bu işıq xatırlayanların da, bizim də ürəyimizi tellendirir...

1993-cü ilin dekabr ayının 29-uydu. Murovdağın ətəyində - Zəligöldə blindajda bir səmimi söhbətin cazibəsindəydik. Sahib Aslanov tavar sazda "Qaraçı"dan "Ruhani"yə keçmişdi - xallar-güllər ruhumuzun nazını çəkmişdi. Sahib əsgərlərə xitabən demişdi:

- Nağıl qəhrəmanları sizin sevdiyiniz kimi sevilmir. Uşaqların qəhrəmanları siz olacaqsınız. O uşaqlar özlərindən kiçiklərə nağıl qəhrəmanlarından deyil, gerçək qəhrəmanlardan - sizlərdən danışacaqlar.

Onda mənə elə gəlmişdi ki, blindajın işığı artmaqdadı...

Hərbi xidmətə nağıl qəhrəmanlarından daha çox müharibə qəhrəmanlarını tanıyıb gələnlərin əhatəsində belə düşüncələr yaddaşımın "qırışığını açır". Yeniyetmələri gəncləşdirən, gəncləri əsgərləşdirən qəhrəmanlarımızı - Əlif Hacıyevi, Yusif Mirzəyevi, Vəzir Orucovu, Şirin Mirzəyevi, Etibar İsmayılovu, ... , Mübariz İbrahimovu xatırlayıram. Məni səngərdən bu xatırlamalar uğurladı. Sabahlarımızın qəhrəmanlarının əhatəsində dünənlərimizin qəhrəmanlarını xatırlamaq mənəvi borcödəmə kimi yaşanıldı...

...Nağılların fəlsəfəsi qəhrəmanlıqdı. Xalqın sabahlarını, qəhrəmanlıq məfkurəsi təmin edir; əsgərlərimiz işıqlı, nurlu sabahlarımıza xidmət edirlər.

Bayaq zabit İsaq Orucov Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin hərbi qulluqçuların vəzifə maaşlarının artırılması haqqında sərəncamını xatırlatmışdı. Müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu çavuş Yusif Nağıyev demişdi:

- Vətənə xidmətdə təmənna olmur. Ölkə başçısının bu qayğısı bütün hərbi qulluqçuların hərbi xidmətə münasibətini daha da artırıb. Bilirik ki, hərbi xidmətimizin başlıca qayəsi torpaqlarımızın işğaldan azad edilməsidir. Taleyimdən razıyam ki, qələbə ilə nəticələnəcək döyüşlərdə mən də iştirak edəcəm. Nağıl qəhrəmanlarının gerçək qardaşlarıyla bir sırada...

... "Vətənə, xalqa, dövlətə xidmət ömrümüzün mənasıdır" deyən Azərbaycan əsgəri bilir ki, Muradların yolunu gözlədiyi Ağ atlı oğlan elə onun özüdü, səngərdaşıdı. Ali Baş Komandanın döyüş əmriylə döyüşəcək, "Sənin üçün hər birimiz Mübarizik, Ana Vətən!" deyib döyüşəcək, qələbə ruhuyla döyüşəcək, gerçək qəhrəman olmaq üçün döyüşəcək...

**Rəşid HÜSEYNOV,**
**əməkdar jurnalist,**
**fotolar**
**Coşqun CƏFƏROVUNDUR**

# “Gənc Heydərçilər” hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsində

*Müdafiə Nazirliyi və Nəsimi rayon İcra Hakimiyyəti tərəfindən gənclərin sağlam ruhda böyüməsi, idmana marağının artırılması və hərbi vətənpərvərlik tərbiyəsinin möhkəmləndirilməsi məqsədilə təşkil olunan "Gənc Heydərçilər" hərbi vətənpərvərlik təmayüllü yay istirahət düşərgəsi davam edir.*





Şəxsi Heyət Baş İdarəsi İdeoloji İş və Mənəvi-Psixoloji Təminat İdarəsinin zabiti Kamran Nəsibov düşərgə haqqında fikirlərini bölüşərək dedi ki, təhsildə və idmanda fərqlənən, xüsusi istedadlı yeniyetmələri, həmçinin döyüşlərdə şəhid olmuş və cəbhə xəttində xidmət edən zabitlərin övladlarının iştirak etdiyi gəncliyin Vətənə sədaqət ruhunda tərbiyəsi baxımından müstəsna əhəmiyyətə malik "Gənc Heydərçilər" layihəsi artıq 6-cı ildir gerçəkləşir. "Gənclərin dünyagörüşünün hərtərəfli inkişafının təmin edilməsi dövlətin həyata keçirdiyi başlıca tədbirlərdəndir. Gənc nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam böyüməsi, vətənpərvərlik ruhunda formalaşması müstəqil dövlətçiliyin möhkəmləndirilməsində mühüm amillərdəndir. Çünki möhkəm və güclü dövlətin varlığı gənclərin bir şəxsiyyət kimi formalaşmasından, onların Vətənə sevgisindən də asılıdır. İnsanın Vətənə bağlılığı onun ən ali əxlaqi-mənəvi məziyyətləri sırasında birincilərdən hesab olunur. Bu məsələ cəmiyyətdə daim aktual olmuş, bu gün də aktual olaraq qalır. Millətin vətənpərvərliyi onun tamlığının, bütövlüyünün təməlidir. Bu hiss onun əsas komponentlərini də - doğulduğu torpağı, yaşadığı ölkəni sevmək, uğrunda çalışmaq, ona əməlləri ilə faydalı olmaq, onu qorumaq kimi keyfiyyətlərlə yanaşı, insanın ləyaqətlilik, əqidəlilik, vicdanlılıq, sədaqətlilik borcunu da yada salır. Vətənə sədaqət ruhu ilk növbədə ailədən, uşaqlıq çağından başlayır. Həmin vaxtdan aşılanan fikirlər uşağı gələcəkdə bir şəxsiyyət kimi formalaşdırır.

Düşərgəyə təhsildə və idmanda fərqlənən, xüsusi istedadlı yeniyetmələr, həmçinin şəhid olmuş, eləcə də ön xətdə xidmət edən hərbi qulluqçuların övladları göndərilib.

Yeniyetmələr burada təşkil olunan yarışlarda, müsabiqələrdə iştirak etməklə yanaşı, hərbi hissədə əsgərlərin gündəlik həyatı və məişət şəraiti, eləcə də müxtəlif silah və texnika ilə tanış olurlar.

"Gənc Heydərçilər" layihəsində iştirakçıların intellektual və vətənpərvər ruhda formalaşması istiqamətində lazım olan bütün addımlar atılır. Gələcək əsgərlərin hərbi təlimatlarla, şəxsi heyətin gündəlik həyat və fəaliyyəti ilə, hərbi hissədəki şəraitlə, hərbi hissənin silah və döyüş texnikası, əsgərlərin gündəlik həyatı ilə tanış olması üçün hər cür şərait yaradılıb. Yeniyetmələrin ordu haqqında təəssüratları xeyli zənginləşir. Uşaqların təlim-tərbiyə işləri ilə hərbi hissənin zabit, gizir və çavuşlarından ibarət qrupu, Nəsimi rayonunun orta məktəblərində çalışan idman və hərbi hazırlıq müəllimləri məşğul olurlar. "Gənc Heydərçilər"in hərbçilərlə yaxından təmasını təmin etməklə həm gələcəkdə hərbi xidmətə daha yaxşı hazırlaşmalarına, həm də hərbçi peşəsinə maraqlarının artırılmasına çalışırlar.

Hərbi hissədə xüsusi olaraq ayrılmış kazarmada yeniyetmələrin istirahəti üçün bütün imkanlar yaradılıb: "Düşərgənin hərbi vətənpərvərlik təmayüllü olması nəzərə alınaraq uşaqlar xüsusi geyim forması ilə təmin edilib. Günün birinci yarısınadək keçirilən dərslərdə uşaqlara hərbi xidmətlə bağlı ilkin anlayışlar aşılanır. İkinci yarısında mədəni-kütləvi tədbirlər keçirilir. Yeniyetmələr yüksək kalorili yeməklə, təzə meyvə və tərəvəz, süd məhsulları ilə təmin olunurlar. Onların təbiət qoynunda nahar etmələri də təşkil edilir. Layihə iştirakçıları düşərgənin yerləşdiyi rayonun görməli yerlərini ziyarət edirlər."

Zabit "Gənc Heydərçilər"in hərbi xidmət haqqında müəyyən məlumatlar əldə etdiyini, bir çoxunun gələcəkdə bu peşənin davamçıları olacağına əminliyini də vurğuladı.

Bütün bunlar yay istirahət düşərgələrinə cəlb edilənlərin dünyagörüşünün formalaşmasında, onların dövlətçiliyə sevgisinin daha da artırılmasında müstəsna rol oynayır. Uşaqlar yay istirahət düşərgəsində, sözün əsl mənasında, əsgər xarakterinə yiyələnirlər. Hərbi texnikalarla yaxından tanışlıq təkcə müəyyən təəssürat yaratmır, həm də onları idarə edənlərə ehtiram, rəğbət yaradır. Bu anlamda yay istirahət düşərgəsi cəmiyyətlə ordu arasında münasibətlərin şaxəli inkişafına xidmət edir. Digər tərəfdən, hərbi texnikalarla tanışlıq, təmas yeniyetmələrdə hərbçi peşəsinə maraq, sevgi də yaradır və yaxud haçansa yaranmış marağı, sevgini dərinləşdirir.

Düşərgədə hər şey günün nizam qaydaları ilə tənzimlənir, yəni yeniyetmələr burada həqiqi hərbçi, konkret olaraq əsgər həyatı yaşayırlar. Səhər idmanı da, müxtəlif gəzintilər də bunun üçündür.

Düşərgədə təşkil edilən hər tədbir mahiyyət etibarilə hərbi xidmətin necəliyi haqqında təəssürat yaradır və bu təəssürat sabahlara hesablanır. Yeniyetmə ordu ilə bu səviyyədə təmasda olmaqla 2016-cı ilin Aprel döyüşlərində qələbə qazananların davamçıları olacaq əsgərləri şəxsən tanımaqla qürurlanacaqlar da. Bu tədbirin ənənəviliyi şəhid olmuş, eləcə də ön xətdə xidmət edən hərbi qulluqçuların övladlarının, həmçinin idmanda böyük uğurlar qazananların orduya marağını sistemləşdirir ki, bu da müəyyən mənada pedaqoji bir prosesin tərkib hissəsi kimi dəyərlidir.

Düşərgədə təşkil edilən hər tədbir yeniyetmələrin maraq dünyasıyla səsləşir. Belə ki, tədbirlər bilavasitə xalqımızın tarixini, mədəniyyətini, milli-mənəvi dəyərlərini əhatə edir. Yaşadıla-yaşadıla öyrənilənlər, öyrənilə-öyrənilə yaşadılır. Düşərgənin fəaliyyəti də məhz bu amilə görə dəyərlidir.

Burada müxtəlif idman yarışları da təşkil edilir ki, bu da özlüyündə qeyd etdiyimiz pedaqoji prosesin tələblərindəndir.

Düşərgədə intellektual tədbirlər də həyata keçirilir.

Yeniyetmələrin yaradıcılıq qabiliyyətini üzə çıxarmaq məqsədilə keçirilən "Gənc Heydərçilər"in "Əsgərə məktub" inşa müsabiqəsi bu qəbildəndir. Yeniyetmələr tanımadıqları, ancaq sevdikləri əsgərə məktub yazmaqla orduya rəğbətini, sevgisini bildirir.

Hər məktub bir ürəyin çırpıntısıdı.

Hər məktub bir ehtiramın söz təsdiqidi.

İlyas Əfəndiyev adına Elitar Gimnaziyanın şagirdi Cəfər Məmmədovun "Əsgər olmaq çox şərəflidir. Çünki Vətən anadır", - fikri onun, onun timsalında bu günümüzün şagirdlərinin intellektual səviyyəsinin təsdiqidir. 11-ci sinif şagirdi Vəfadar Rizvanov yazır: "Boyum balacadır. İnanıram ki, boyum da böyüyəcək. Mən də sənin kimi əsgər olacam". Bu məktubun hər sətri şagirdin hərbi xidmətə sonsuz rəğbəti kimi oxunur.

Yusif Mirzəyev adına 44 saylı orta məktəbin 10-cu sinif şagirdi Cəfər Əliyevin fikirləri də bunlara müvafiqdir.

Müseyib Vəliyev yazır: "... Mənim atam da hərbçidir. Mən hərbçi olmağın nə olduğunu bilirəm. Elə buna görə də öz hərbçi oğullarıyla qürur duyan Azərbaycanımızı bağrıma basıram..."

Digər məktublar da maraqlıdır. Oxuduqca adamın ürəyi dağa dönür. Qürurlanırsan ki, belə yeniyetmələrimiz var. Onlar sabahlarımızın əsgəri olacaqdır, işğaldan azad edilmiş ərazilərimizdə xidmət edəcəklər...

Redaksiyamıza göndərilən "Əsgərə məktub" müsabiqəsinə təqdim olunan yazılarla bağlı polkovnik-leytenant Kamran Nəsibovla əlaqə saxladıq. Zabit bildirdi ki, "Gənc Heydərçilər"in hərbi xidmət haqqında müəyyən məlumatlar əldə etdiyinə, bir çoxunun gələcəkdə bu peşənin davamçıları olacağına əminəm.

Yeniyetmələrin asudə vaxtlarının səmərəli keçirilməsi üçün müxtəlif oyunlar, yarışlar, viktorinalar keçirilir. "Gənc Heydərçilər"in dünyagörüşünün formalaşmasına xidmət edən inşa müsabiqəsi belə tədbirlərdəndir. Mahiyyət etibarilə vətənpərvərlik duyğularının daha da yüksəldilməsini təmin edən belə müsabiqələr həm də yaradıcılıq imkanlarının genişləndirilməsi üçündür.



**"Azərbaycan Ordusu"**

# Muzey döyüş şöhrəti aşılayır

Naxçıvan həm zəngin tarixi abidələri ilə məşhurdur, həm də muzeylərinin sayına və zəngin eksponatlarına görə də öncül yerlərdən birini tutur. Yaşı min illiklərlə ölçülən bu qədim diyarda 30 muzey və muzey tipli müəssisə fəaliyyət göstərir. Bu muzeylərdə xalqımızın tarixini, həyat tərzini, adət-ənənələrini əks etdirən 140 mindən çox maddi-mədəniyyət nümunələri mühafizə olunur. Ötən il Azərbaycan Silahlı Qüvvələrinin yaradılmasının 100-cü ildönümü ərəfəsində Naxçıvanda yeni bir muzey istifadəyə verildi. Naxçıvan hərbi şəhərciyində açıq səma altında yaradılan Döyüş Şöhrəti Muzeyi profilinə görə muxtar respublikada yaradılmış ilk muzeydir.



13 min kvadrat metr sahəni əhatə edən muzeyi gəzəndə insan sanki özünü döyüş meydanında hiss edir. Nələr yoxdur bu meydanda? - Əsasən 90-cı illərdə muxtar respublikanın müdafiəsində istifadə olunmuş onlarla hərbi texnika və qurğu. Bu silah və qurğular blokadaya salınmış muxtar respublikanın ərazi bütövlüyünün qorunub saxlanılmasında böyük rol oynayıb.

Ümumilikdə, müxtəlif illərdə döyüş növbətçiliyinə qəbul edilmiş 26 adda silah, texnika və qurğu - haubitsa, top və minaatan, hava hücumundan müdafiə üzrə döyüş maşınları, zenit-raket qurğuları, "Mi-8T" döyüş-nəqliyyat vertolyotu, yer qazan və maneə ləğvetmə maşınları, tanklar, piyadanın döyüş maşınları, zirehli transportyor və döyüş kəşfiyyat maşınları, dartıcılar, eləcə də müxtəlif hərbi təyinatlı avtomobillər. Nümayiş etdirilən hərbi texnikaların hər birinin yanında məlumat lövhələri qoyulub. Bu lövhələr vasitəsilə texnikaların istehsal ili, istifadə sahələri, texniki xüsusiyyətləri, döyüşlərdə iştirakı haqqında məlumat əldə edilir. Muzey xalqımızın döyüş ruhunu, qələbə əzmini nümayiş etdirməklə yanaşı, həm də tamaşaçılara döyüş şöhrəti aşılayır. Bu texnikaların hər birini hərəkətə gətirən qəhrəman oğullar olub. 90-cı illərdə az sayda texnika ilə düşmənin qarşısına çıxıblar və son damla qanlarına qədər döyüşüblər. İndi eksponata çevrilmiş bu texnikalar həmin dövrün canlı şahidləri kimi sanki dil açıb danışır. Müharibə illərindən, insanların döyüş əzmindən bəhs edir. 90-cı illərin ağır, böhranlı illərində milli ordu quruculuğuna da məhz Naxçıvandan başlanılmışdı. O vaxt Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri olan Ümummilli Liderimiz muxtar respublikanın sərhədlərinin möhkəmləndirilməsi və müdafiəsinin təşkili haqqında qərarlar qəbul etmiş, bununla da hərbi hissələrə və könüllü dəstələrə vahid rəhbərlik təmin olunmuşdu. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk briqada təşkil edildi. 27 il bundan əvvəl - 1992-ci il oktyabrın 9-da Naxçıvanda keçirilən ilk hərbi paradda ümummilli lider Heydər Əliyev deyirdi: "Biz 70 il ərzində hər il keçmiş Sovetlər İttifaqının silahlı qüvvələrinin bayramlarının iştirakçısı olmuşuq. Fəqət bugünkü bayram bizim hər birimizin qəlbində böyük iftixar hissi doğurur. Biz böyük sevinc içərisindəyik. Çünki Azərbaycan xalqı, nəhayət, öz dövlətini, öz millətini, öz doğma torpaqlarını müdafiə etmək üçün milli ordusunu yaratmışdır".

Azərbaycanın qüdrətli ordusu vardır. Ordu quruculuğu istiqamətində həyata keçirilən tədbirlərin miqyası və əhəmiyyəti ilbəil artmaqla yanaşı, həm də gənclərin hərb peşəsinə marağının artırılması, hərbi vətənpərvərlik tərbiyəsinin aşılanması da diqqətdə saxlanılır. Bu baxımdan Döyüş Şöhrəti Muzeyi əhəmiyyətli rol oynayır.

Muzeyə maraq artır. Tamaşaçılar içərisində uşaq və gənclər üstünlük təşkil edir. Hər kəs eksponatlara çevrilmiş döyüş texnikalarına maraqla baxır, məlumat əldə edir. Muzey gənc nəslin hərbi vətənpərvərlik tərbiyəsində mühüm rol oynayır. Tədris ilində məktəblilərin Döyüş Şöhrəti Muzeyinə ekskursiyası təşkil olunur. Açıq səma altında yerləşən muzey Naxçıvan şəhərinə gələn turistlərin də üz tutduğu ünvanlardan birinə çevrilib.

Danılmaz faktdır ki, bu gün ordumuzun arsenalı müasir tələblərə yüksək səviyyədə cavab verən milli və dünyanın aparıcı silah sənayelərinin istehsalı olan hərbi texnikalarla təchiz olunub. 2017-ci il oktyabrın 18-də muxtar respublikada ilk milli hərbi hissənin yaradılmasının 25-ci ildönümü münasibətilə keçirilən möhtəşəm hərbi parad və ötən il iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 100 illik yubileyi münasibətilə Bakıda keçirilən təntənəli hərbi parad da bunu bir daha təsdiq etdi. Bu yaxınlarda Əlahiddə Ümumqoşun Ordunun və Naxçıvan Muxtar Respublikasının güc strukturlarının, eləcə də Türkiyə Respublikası Silahlı Qüvvələri bölmələrinin birgə döyüş atışlı "Sarsılmaz qardaşlıq-2019" taktiki təlimi bir daha onu göstərdi ki, Naxçıvandakı ordu hissələri böyük potensiala malikdir.

Hər muzey özündə tarixi hifz edir, tarixi hadisələrin canlı şahidi kimi keçmişlə gələcək arasında körpü rolunu oynayır. Bu körpüdən keçməklə istər yerli sakinlər, istər turistlər ölkənin tarixi, mədəniyyəti, ədəbiyyatı, eləcə də hərb tarixi barədə geniş bilgilərə sahib ola bilərlər. Bu mənada Döyüş Şöhrəti Muzeyi təkcə hərb tariximizin şöhrətini deyil, eyni zamanda, ordumuzun müasir gücünü də göstərir. Bu güc orduya inamı daha da artırır, eləcə də ordu sıralarında xidmət etmək, Vətənin müdafiəsində dayanmaq istəyini də…

**Ruhiyyə RƏSULOVA,**
**Naxçıvan televiziyasının baş redaktoru**

*Hərbi texnikalar, silahlar*

# Mühəndis maşını



Maneələrin aradan götürülməsi üçün nəzərdə tutulmuş mühəndis döyüş maşını yerlərdə (meşə, şəhər) kolonların keçilməsi, üçün yolların çəkilməsi, çuxurların təmizlənməsi və doldurulması üçün nəzərdə tutulub. Maşının heyəti sürücü-mexanik və komandir operatordan ibarətdir. Baza qismində onda əsas və orta T-55 tankının şassisindən istifadə edilib. Mühəndis maşınının gövdəsi hermetik və qorunandır. Gövdəsinin dərinliyi polad təbəqə ilə möhkəmləndirilib. Silahlanmasına bir ədəd döyüş dəsti 150 patrondan ibarət olan AKS-74U avtomatı, 10 ədəd F-1 qumbarası, SPŞ siqnal tapançası daxildir ki, onun da döyüş dəsti 30 atışdan ibarətdir. Mühəndis maşınında əlaqə yaratmaq üçün R-113 və ya R-123 radiostansiyası quraşdırılıb. Yanğının qarşısını almaq üçün avtomat yanğınsöndürmə sistemi, radiasiya və kimyəvi zədələnmə zonasında işləmək üçün kimyəvi kəşfiyyat cihazı ilə və radio-rentgenometrlə də təchiz edilib. Buldozer cihazlanması üç rejimdə işləyir. İş rejiminin dəyişdirilməsi məsafəli olaraq hidravlik naqillərin köməyi ilə həyata keçirilir. Mühəndis maşınının çəkisi 37,5 ton, gövdəsinin uzunluğu 8950-15380 mm, eni 3560-4150 mm, hündürlüyü 3290-3360 mm-ə qədərdir. Maşının baza hissəsi 3740 mm-dir. Zirehi poladdandır. Mühərriki B-55, 580 at gücündədir. Sürəti şossedə saatda 50 kilometr, kəsişmə yerlərdə isə saatda 22-27 kilometr təşkil edir. Şosse yolda ehtiyat hərəkəti 500 kilometrə qədərdir. 0,8 metrlik divar, 2,7 metrlik xəndək-çuxur maneələrini keçə bilir.



**Hazırladı:**
**Svetlana YUSUBOVA**

# Xəbərlər: hadisələr, faktlar

## Türkiyədə axtarışda olan daha iki təhlükəli terrorçu zərərsizləşdirilib



Türkiyənin təhlükəsizlik qüvvələri tərəfindən Bingöl-Yedisu rayonu ərazisində həyata keçirilən antiterror əməliyyatı nəticəsində məhv edilən 4 PKK terrorçudan ikisi axtarışda olub.

Məhv edilən terrorçuların şəxsiyyəti müəyyən edilərkən aşkar edilib ki, onlardan biri "Şevin" ləqəbli Hülya Kül, digəri isə "Bahoz Velat" ləqəbli Cihan Akaldır. Hülya Külün axtarışına 1 milyon 500 min lirə (təxminən 310 min ABŞ dolları), Cihan Akalın axtarışına 300 min lirə (53 min ABŞ dolları) vəsait ayrılmışdı. Hər ikisi Türkiyə dövləti əleyhinə terrorçuluq fəaliyyətində ittiham olunur.

Diyarbəkirin Lice rayonunda PKK-nın əsas gəlir mənbəyi sayılan narkotik bitkilərin plantasiyaları ələ keçirilib. Rayon ərazisindən 17 ayrı sahədə, ümumilikdə 1 milyon 378 min 700 ədəd narkotik tərkibli yaşıl bitki aşkar olunaraq məhv edilib.

Faktla bağlı cinayət işi açılıb.

## İranda 17 nəfər casusluq ittihamı ilə məhkum olunub



İranda 17 nəfər ABŞ-ın lehinə casusluq ittihamı ilə məhkum olunub. Tehran məhkəməsində onların bir neçəsi barəsində edam hökmü verilib.

Agentliyin İranın İnformasiya Nazirliyinə istinadla yaydığı xəbərdə deyilir ki, casuslar İranın mühüm obyektləri ilə bağlı informasiyalar toplayıblar. Nazirliyin məlumatına görə, müttəhimlər Birləşmiş Ştatların Mərkəzi Kəşfiyyat İdarəsində xüsusi hazırlıq keçiblər. Qeyd olunub ki, İranın xüsusi kəşfiyyatı bu şəxsləri ötən il həbs edib.

## Əfqanıstanda hava zərbələri nəticəsində 8 dinc sakin həlak olub



Əfqanıstanın Loqar əyalətində "Taliban" silahlılarının bazasına endirilən hava zərbələri nəticəsində səkkiz dinc sakinin, o cümlədən qadın və uşaqların həlak olduğu bildirilir.

Əyalət polisinin sözçüsü Şahpur Əhmədzai bildirib ki, ABŞ-ın hava qüvvələri Bəraki Bərat rayonunda iyulun 22-nə keçən gecə "Taliban"ın yerüstü hədəflərini bombalayıb. Onun sözlərinə görə, ən azı səkkiz dinc sakin ölüb, ərazidə olan silahlıların itkiləri barədə isə məlumat yoxdur. Əyalətin Tolo News nəşrinin xəbərində isə Əfqanıstan paytaxtından 100 kilometrlik məsafədə yerləşən bu rayona hava zərbələri endirilməsi təsdiqlənib.

Qeyd olunur ki, ABŞ-ın vasitəçiliyi ilə "Taliban"la hökumət rəsmiləri arasında aparılan danışıqlardan sonra ölkədə tərəflər arasında döyüşlər daha da şiddətlənib və itkilərin sayı artıb. Yerli mənbələr bildirirlər ki, iyulun ilk ongünlüyündə dinc əhali arasında ölənlərin sayı 100 nəfərdən çoxdur. Əyalət parlamentinin üzvü Cavid Mücədedi bildirib ki, hazırda "Taliban" Bədəxşan əyalətinin mineral ehtiyatları ilə zəngin olan Kəran və Məncan rayonunu ələ keçirməyə çalışır. Burada yerləşən lazurit mədənləri uğrunda döyüşlər gedir. Hər iki tərəfdən ağır itkilərin olduğu bildirilir.

## Gürcüstanda ağır yol-nəqliyyat hadisəsi baş verib



Gürcüstanda ağır yol-nəqliyyat hadisəsi baş verib.

Hadisə Gürcüstanın Acarıstan Muxtar Respublikasının Xulo qəsəbəsi ərazisində qeydə alınıb. Batumiyə gedən sərnişin mikroavtobusu qəzaya uğrayıb. Nəticədə bir nəfər ölüb, üç nəfər xəsarət alıb. Yaralılar xəstəxanaya çatdırılıb. Qəzanın başvermə səbəbi hələlik məlum deyil.

Hadisə ilə bağlı araşdırma aparılır.

**AZƏRTAC-ın materialları əsasında**

*Azərbaycan mətbuatı - 144*

# Torpaqlarımız işğaldan azad ediləcək!

*Jurnalistika ixtisasını seçdiyimə görə taleyimdən çox razıyam. Həm də hərbçi peşəsini seçdiyim qədər razıyam. Yəni həm hərbçi olacam, həm də jurnalist...*

Mən də bilirəm ki, Azərbaycan mətbuatı Həsən bəy Zərdabinin yaratdığı "Əkinçi" qəzeti ilə başlayır. 144 il əvvəl qəzetin ilk sayı dərc olunub. Mən hərbçi olmağı qərara alanda bu haqda o qədər də geniş məlumatım yox idi. Heydər Əliyev adına Azərbaycan Ali Hərbi Məktəbinin kursantı olaraq gələcəkdə hərbçi-jurnalist olmağım üçün Moskva şəhərinə göndəriləndə də bu haqda bilgilərim zəngin deyildi. İndi bilirəm ki, Azərbaycan mətbuatı çox inkişaf edib. Azərbaycanda mətbuata senzura aradan qaldırılıb. Mətbuat haqqında qanun qəbul edilib. Bunlar söz azadlığını əhatəli şəkildə təmin edir.

Son illərdə Azərbaycan mətbuatına qayğı müqayisəyəgəlməz səviyyədə artıb. Belə ki, Azərbaycan Prezidentinin sərəncamı ilə Kütləvi İnformasiya Vasitələrinə Dövlət Dəstəyi Fondu yaradılıb, qəzetlərin nəşrinə pul vəsaiti ayrılır, jurnalistlər üçün ayrıca binalar inşa edilir. Bunlar isə özlüyündə mətbuatın inkişafına dövlət qayğısıdır.

22 İyul Mətbuat Günüdür. Mən gələcəkdə jurnalist olacam. Jurnalistləri xaricdə təhsil alan azərbaycanlılar adından peşə bayramı münasibətilə təbrik edir, hər birinə böyük yaradıcılıq uğurları arzulayıram. İnanıram ki, mən təhsilimi başa çatdırana kimi torpaqlarımız işğaldan azad ediləcək.

**Kursant**
**Elvin VƏTƏNDUST**

# "Eternity-2019" təliminin yekun planlaşdırma konfransı keçirilib



Silahlı Qüvvələrinin Hərb Oyunları Mərkəzində Azərbaycan, Türkiyə və Gürcüstan hərbi qulluqçularının iştirakı ilə "Eternity-2019" kompüter dəstəkli komanda qərargah təliminin yekun planlaşdırma konfransı keçirilib.

Müdafiə Nazirliyi Mətbuat Xidmətinin məlumatına əsasən, tədbirdə üç ölkənin müvafiq qurumlarının nümayəndələri regiondakı iqtisadi cəhətdən əhəmiyyətli layihələrin mühafizəsinin təşkilinə həsr olunan təlimə hazırlıq məsələlərini və qarşıda duran digər tapşırıqları müzakirə ediblər.

# Avstraliyanın Rusiyadakı səfirinə Dağlıq Qarabağ münaqişəsi barədə məlumat verilib

Azərbaycanın Rusiyadakı səfiri Polad Bülbüloğlu Avstraliya İttifaqının bu ölkədə yeni təyin olunmuş səfiri Qreym Mixan ilə görüşüb.

AZƏRTAC xəbər verir ki, həmkarını təyinatı ilə əlaqədar təbrik edən P.Bülbüloğlu ona diplomatik fəaliyyətində müvəffəqiyyətlər arzulayıb. Səfir P.Bülbüloğlu Azərbaycan ilə Avstraliya arasında münasibətlərin yüksək səviyyədə olduğunu bildirib, dövlətlərarası əlaqələrin daha inkişaf etdirilməsi üçün geniş potensialın mövcudluğunu vurğulayıb.

P.Bülbüloğlu Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin tarixi və nəticələri haqqında avstraliyalı diplomata ətraflı məlumat verib, münaqişənin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində tezliklə həllinin regionda sülhün və sabitliyin bərqərar olmasına bilavasitə təsir edəcəyini söyləyib.

*Asudə vaxt*

# Dostluğumuz sarsılmazdır



Yaxşı dost(lar)a hər zaman ehtiyacımız var. Sevincini, kədərini bölüşmək, məsləhətlər almaq üçün ona müraciət edirsən. Dostluq daxildən gələn ülvi hiss, iki insan arasında olan qırılmaz zəncir, mənəvi körpüdür. Sarsılmaz dostluqların çoxu hərbi xidmətdə qurulur. Əsgərlik dostluğu, xüsusilə də, səngər dostluğu polad kimi möhkəm olur. Ön xətdə xidmət edən əsgərlər Azər Əlizadə və Elnur Hüseynov ilə tanışlıqdan sonra buna bir daha əmin oldum.

Biləsuvar rayonundan olan əsgər Azər Əlizadə hərbi xidmətə çağırılmamışdan əvvəl "Neftçi" futbol klubunun yeniyetmələrdən ibarət komandasında oynayıb. Xidmətini bitirdikdən sonra bu sahə üzrə planlarını davam etdirmək fikrində olduğunu bildirdi. Əsgər dostluğu barədə sualımı cavablandırarkən sözlərindəki səmimiyyət və sədaqəti hiss etmək çətin deyildi. "Mənim üçün dostluğu şərtləndirən dörd əsas prinsip var: möhkəmlilik, qarşılıqlı hörmət, düzlük və mərdlik. Bu prinsiplər bir-birini tamamlayır.

Dostluq təkcə xoş gündə yanında olmaq deyil, çətin günün dostu olasan gərək. Arzu edirəm ki, bütün insanların dostluğu daimi və əbədi olsun. Uşaqlıq dostlarım və sinif yoldaşlarımın da əksəriyyəti hazırda Vətənin müdafiəsində dayanıblar. İmkan daxilində komandirlərimin vasitəsilə onlarla əlaqə saxlayıram. Əsgər yoldaşlarımın arasında da dostlarım var. Əsgər Elnur Hüseynov da onlardan biridir. Asudə vaxtlarımızda keçirilən oyunlar zamanı ikimiz eyni komandada olmağa çalışırıq. Oyunları kimin qazanmasından asılı olmayaraq Ali Baş Komandanın döyüş əmri ilə hər birimiz çiyin-çiyinə düşmənə qarşı vuruşacağıq, torpaqlarımızı işğaldan azad edib tarixi qələbəni qazanacağıq."

Əsgər Elnur Hüseynov dostu Azərdən fərqli olaraq tərxis olunduqdan sonra hərbi xidmətini davam etdirmək arzusunda olduğunu bildirdi. Elnur, həmçinin qeyd etdi ki, tərxis olunduqdan sonra harada yaşamalarından asılı olmayaraq dostları ilə daim əlaqə saxlayacaq. "Hərbi xidmət mənə çox şey qazandırdı. Mənim burada ən böyük qazancım Vətəninə və millətinə ürəkdən bağlı olan dostlar oldu. Cəbhə dostluğu sarsılmazdır. Xidmət dövründə bəzən elə anlar olur ki, yaxınlarının və doğmalarının məsləhətlərinə ehtiyac duyursan. Burada komandirlərimizin yaratdığı dostluq mühiti bizə bu boşluğu hiss etdirmir. Əsgər yoldaşlarımdan Azərlə hər zaman xatirələrimi bölüşürəm. Şəkidən olduğum üçün danışdığım lətifələr başqa maraqla dinlənilir. Düşmənlə təmas xəttində hər birimiz ruh yüksəkliyi ilə xidmət edirik. Bölməmizdə xidmət edən əsgər yoldaşlarımızla ən böyük arzumuz döyüş postundan müşahidə etdiyimiz tarixi dədə-baba torpaqlarımızda nəfəs almaqdır".

**Leytenant**
**Fuad CƏFƏROV,**
**"Azərbaycan Ordusu",**
**foto**
**Coşqun CƏFƏROVUNDUR**

# "EYOF Bakı 2019"

## "EYOF Bakı 2019"un ikinci günündə medal siyahısına Azərbaycan millisi başçılıq edir

İyulun 22-də - "EYOF Bakı 2019" XV Avropa Gənclər Yay Olimpiya Festivalının ikinci günündə 16 ölkənin idmançıları medal qazanıblar.

AZƏRTAC xəbər verir ki, iki günün nəticələrinə əsasən medal siyahısına Azərbaycan yığma komandası başçılıq edir. Komandamızın aktivində 10 medal - 4 qızıl, 4 gümüş və 2 bürünc medal var. Medalların hamısını komandamıza güləşçilərimiz qazandırıblar. Belə ki, yunan-Roma pəhləvanlarımız 3 qızıl və 1 bürünc, sərbəst güləşçilərimiz 1 qızıl, 2 gümüş və 1 bürünc, qadın güləşçilərimiz isə 2 gümüş medala sahib olublar.

Hesabında 3 qızıl və 1 bürünc medal olan İtaliya seçməsi ikinci sırada qərarlaşıb. Üçüncü pillədə isə 2 qızıl, 1 gümüş və 5 bürünc medalla Rusiya yığması yer alıb. İlk beşlikdə sonrakı yerləri Türkiyə (1-1-1) və Rumıniya (1-1-0) seçmələri tamamlayırlar.

Festivala iyulun 27-də yekun vurulacaq.

* * *

İyulun 23-də XV Avropa Gənclər Olimpiya Festivalının güləş yarışlarının sonuncu günündə iki pəhləvanımız finala vəsiqəni təmin edib.

Yeddi çəki dərəcəsinin hamısında təmsil olunan Azərbaycan komandasının üzvlərindən yunan-Roma güləşçisi Elmir Əliyev (51 kq) səkkizdəbir finalda norveçli Kristoffer Andreseni (8:0) dörddəbir finalda rumıniyalı Romania Nihaini (2:1), yarımfinalda isə gürcüstanlı Nukri Benidzeni (6:1) məğlub edərək finala vəsiqə qazanıb.

Kənan Heybətov (51 kq) isə finala gedən yolda ukraynalı İvan Terziyə (12:2), finlandiyalı Niko Hivoneyə (10:0), yarımfinalda Nektarious Kuzupisə (12:1) qalib gələrək finala adlayıb.

Sərbəst güləşçimiz Cəbrayıl Hacıyev (65 kq), yunan-Roma güləşçisi Xasay Həsənli (65 kq), qadın pəhləvanlardan isə Nigar Mirzəzadə (65 kq) və Elnurə Məmmədova (53 kq) yarımfinalda mübarizəni davam etdirirlər.

**Baş redaktor**
polkovnik-leytenant
İlham BEHBUDOV

**Telefonlar**
Baş redaktor: (012) 510-71-97 (faks);
Baş redaktorun müavini: (012) 510-64-27;
Məsul katib: (012) 510-71-98;
Məktublar şöbəsi: (012) 510-64-28.

**Ünvanımız**
Bakı şəhəri, akademik
Şəfaət Mehdiyev küçəsi 144,
"Qızıl Şərq" hərbi şəhərciyi

**Növbətçi**
Rəşid HÜSEYNOV

**Qəzetin hesabı**
Nərimanov Rayon Xəzinədarlığı
Kod: 200189
VÖEN: 1500428611

Qəzet həftədə iki dəfə (III-VI günlər) nəşr olunur.
"Azərbaycan Ordusu" qəzeti kompüter mərkəzində səhifələnərək "Hərbi nəşriyyat"ın mətbəəsində hazır diapozitivlərdən çap olunur. Əlyazmalara rəy verilmir, təqdim edilən yazılar müəllifə qaytarılmır.
Qəzeti mod.gov.az saytından oxuya bilərsiniz.

Lisenziya № 361
Sifariş № 533
Nüsxə 4000